**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

---

*Əlyazması hüququnda*

**AYNURƏ TOFİQ qızı MUSAYEVA**

# ŞƏRƏF VƏ LƏYAQƏT ƏLEYHİNƏ EDİLƏN İCTİMAİ TƏHLÜKƏLİ ƏMƏLLƏRLƏ (TƏHQİR VƏ BÖHTAN) CİNAYƏT HÜQUQİ MÜBARİZƏ

**İxtisas: 5611.01 – "Cinayət hüququ və kriminologiya; cəza-icra hüququ"**

Hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim olunmuş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI – 2018**

Dissertasiya işi Bakı Dövlət Universitetinin "Cinayət hüququ və kriminologiya" kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| **Elmi rəhbər:** | **hüquq üzrə elmlər doktoru, professor, Azərbaycan Respublikasının Əməkdar hüquqşünası F.Y.SƏMƏNDƏROV** |
| **Rəsmi opponentlər:** | **hüquq üzrə elmlər doktoru, professor H.S.QURBANOV** |
| | **hüquq üzrə fəlsəfə doktoru, dosent əvəzi S.M.BABAYEVA** |
| **Aparıcı təşkilat:** | **Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyası** |

Dissertasiya işinin müdafiəsi "___" "____________" 2018-ci il tarixdə saat "_____" Bakı Dövlət Universiteti nəzdində təşkil edilmiş B/FD.02.013 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ-1148, Bakı şəhəri, akademik Z.Xəlilov küçəsi, 23, Bakı Dövlət Universiteti, I tədris korpusu, 901 saylı auditoriya.

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin Elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "___" "____________" 2018-ci il tarixdə göndərilmişdir.

**B/FD.02.013 Dissertasiya şurasının elmi katibi, hüquq üzrə fəlsəfə doktoru, dosent: Ə.Q. MƏMMƏDOV**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Tədqiqat mövzusunun aktuallığı**. "İnsan hüquqları haqqında" BMT-nin 10 dekabr 1948-ci il Ümumi Bəyannaməsinin 1, 12 və 22-ci maddələri, "Müharibə zamanı mülki əhalinin müdafiəsi haqqında" BMT-nin 12 avqust 1949-cu il Konvensiyasının 3-cü maddəsinin "c" bəndi, "Hərbi əsirlərlə rəftar etmə haqqında" 1949-cu il Konvensiyasının 3-cü maddəsinin "c" bəndi həmçinin, 13 və 14-cü maddələri, "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" 4 noyabr 1950-ci il Avropa Konvensiyasının 3-cü maddəsi, "Köləliyin, qul ticarətinin və köləliyə oxşar institutların və adətlərin ləğv olunması haqqında" BMT-nin 7 sentyabr 1956-cı il Konvensiyasının 5-ci maddəsi, "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" BMT-nin 21 dekabr 1965-ci il Konvensiyasının 5-ci maddəsi, "Mülki və siyasi hüquqlar haqqında" 18 dekabr 1966-cı il Beynəlxalq Paktın 7 və 17-ci maddələri, "Aparteid cinayətinin qarşısının alınması və ona görə cəzalandırma haqqında" BMT-nin 30 noyabr 1973-cü il Konvensiyasının 2-ci maddəsi, "İşgəncənin və qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın və ya cəzanın qarşısının alınması haqqında" 26 noyabr 1987-ci il Avropa Konvensiyasının 1-ci maddəsi, "Uşaq hüquqları haqqında" BMT-nin 20 noyabr 1989-cu il tarixli Konvensiyasının 16-cı maddəsi, "İnsan alverinə qarşı mübarizə haqqında" Avropa Şurasının 16 may 2005-ci il tarixli Konvensiyasının 4-cü maddəsi şərəf, ləyaqət və nüfuzun müdafiəsini nəzərdə tutur. Azərbaycan Respublikasının Konstitusiyasının "Şərəf və ləyaqətin müdafiəsi hüququ" adlı 46-cı maddəsi, "Mülkiyyət" adlı 13-cü maddəsinin 3-cü hissəsi də bu ardıcıllığı izləyir və orada qeyd edilir ki, "hər kəsin şərəf və ləyaqətini müdafiə etmək hüququ vardır". Sadalanan Beynəlxalq Konvensiyaların, Konstitusiyamızın şəxsin şərəf və ləyaqətinin müdafiəsinin qorunmasının təminatçısı olması bu mövzunun tətqiq edilməsinin aktuallığını artırır, "şərəf", "ləyaqət", "nüfuz" terminləri haqqında araşdırma aparmağa maraq yaradır.

Şərəf sözü, uzun müddətli və maraqlı mühakimələr üçün əsas olan, ancaq predmet haqqında möhkəm və dəqiq anlayış verməyən sözlər sırasına daxildir. Şərəf təkcə sadə ideyalardan yox, həm də, öz növbəsində, mürəkkəb ideyalardan biridir. Bu cür ideyalar müxtəlif şəkildə təsəvvür edilərək, özünə bəzi elementlər qazanır, özünün bəzi elementlərini atır və bir neçə mürəkkəb cəbri kəmiyyətlər ortaq böləna malik olduğu kimi, yalnız bir az ümumi olanları saxlayır. Şərəf mötədil müstəbidliyin hökmran olduğu monarxiyaların başlıca rəhbər müddəalarından biridir və o, müstəbid dövlətlərdə inqilabın keçdiyi rolu oynayır: cəmiyyəti müvəqqəti olaraq



ibtidai icma vəziyyətinə qaytarır və hökmdara qədimdə bərabərlik olmasını xatırladır[1].

Şərəf- hər bir insanın və hər bir ictimai vəziyyətin önyarqısı olub, siyasi əxlaqı əvəz edir və onun nümayəndəsi adlanır. Şərəf insanları gözəl hərəkətlər etməyə ruhlandırır, qanunun gücü ilə birləşərək idarəçilyi məqsədinə çatdırır[2].

Şərəf və ləyaqət qarşılıqlı əlaqədədir, şəxsiyyəti xarakterizə edir, ondan ayrılmazdır, şəxsiyyətin mühüm mənəvi sərvətidir. Eyni zamanda, şərəf və ləyaqət fərdlə cəmiyyət arasında müəyyən sosial münasibətləri əks etdirir və cinayət hüququ ilə qorunur. Qədim Romada və Yunanıstanda şərəf və ləyaqət anlayışları şəxsiyyətə hörmətlə bərabər tutulurdu[3].

Şərəf və ləyaqətə müxtəlif müəlliflər tərəfindən müxtəlif anlayışlar verilmişdir**.** Z.A.Əsgərova görə şərəf hər bir fərdə verilən qiymətdir. Şərəf insanın, fərdin bir sosial fərd kimi cəmiyyət üçün nə dərəcədə əhəmiyyətli olmasını ifadə edir. Ləyaqət, adətən insanın özünün özünə verdiyi qiymət kimi çıxış edir [4].

Professor F.Y.Səməndərov şərəfi cəmiyyətin üzvü kimi vətəndaşın sosial ölçüləri, əxlaqi keyfiyyətləri haqda ona verilən ictimai qiymət kimi göstərmişdir. Şəxsiyyətə verilən qiymət xeyli dərəcədə onun özündən, davranışından, dövlətə, cəmiyyətə, kollektivə və başqa şəxslərə münasibətindən asılıdır. Ləyaqət şəxsiyyətin daxilən özünə verdiyi qiymətdir, onun öz şəxsi keyfiyyətləri, qabiliyyətləri, dünyagörüşü, özünün cəmiyyət üçün kəsb etdiyi əhəmiyyəti haqqında təsəvvürləridir[5].

S.Allahverdiyevə görə şərəf şəxsin (şəxsiyyətin) obyektiv ictimai xüsusiyyətidir. O, cəmiyyətin şəxsə (şəxsiyyətə) olan münasibətini müəyyənləşdirir. Şəxsin (şəxsiyyətin) ictimai-mənəvi və ictimai-əxlaqi statusu məhz onunla müəyyən olunur. Şərəf şəxsə olan obyektiv ictimai münasibəti əks etdirir. O, şəxsin cəmiyyətdə tutduğu mövqeyə təsir göstərir. Müəllifin fikrincə ləyaqət dedikdə, şəxsin özünün öz ictimai keyfiyyətlərinə (mənəvi-əxlaqi, işgüzar və digər ictimai keyfiyyətlərinə) verdiyi qiymət başa düşülür. O, qeyd edir ki, şərəf və ləyaqət eyni bir hadisənin, yəni şəxsin malik olduğu ictimai keyfiyyətlərə qiymət verilməsi kimi hadisənin mahiyyətini açır, lakin onlar həmin məsələni müxtəlif müstəvilərdə həll

---

[1] Ç. Bekkaria. Cinayətlər və cəzalar haqqında. Bakı: "Hüquq ədəbiyyatı" nəşriyyatı, 2011, s. 34-36.
[2] http//www.citaty.info/man/sharl-lui-de monteske
[3] Abbasov R. Şərəf, ləyaqət və işgüzar nüfuzun mülki-hüquqi müdafiəsi. Bakı: "Araz" nəşriyyatı, 2002, s.16.
[4] Əsgərov. Z.A. Konstitusiya hüququ. Dərs vəsaiti. Bakı: "Bakı Universiteti" nəşriyyatı, 2002, s.165.
[5] Səməndərov F.Y. Şəxsiyyət əleyhinə edilən cinayətlər. Dərs vəsaiti. Bakı: "Bakı Dövlət Universiteti" nəşriyyatı, 1997, s. 167.

edir[6]. Bəzi rus ədəbiyyatlarında şərəf və ləyaqətə müxtəlif anlayış verilir: şərəf-bu cəmiyyətin şəxsiyyətə verdiyi qiymətdir. Hansı ki, bu qiymət cəmiyyətdə hamı tərəfindən ümumi qəbul edilmiş müsbət hərəkətlərin edilməsi nəticəsində verilir. Ləyaqətin şərəfdən fərqi isə bu qiymətin cəmiyyət üzvləri tərəfindən deyil, şəxsin özünün özünə qiymət verilməsində ifadə olunur. Müəllifin fikrincə, şərəf və ləyaqət arasında ümumi oxşarlıqda var. Onların hər ikisinin əsasını ümumqəbuledilmiş hərəkətlər təşkil edir[7].

K.B.Yaroşenkoya görə, şərəf və ləyaqət şəxsiyyəti fərdiləşdirir, onu xarakterizə edir. Şərəf və ləyaqət vacib olan mənəvi dəyərlərdir, vətəndaşların mənəvi-əxlaqi keyfiyyətləridir. Fərq isə mənəvi-əxlaqi keyfiyyətlərə hansı aspektdən yanaşmadan ibarətdir [8].

Ləyaqət şəxsiyyətin subyektiv qiymətləndirilməsini müəyyən edir. Ləyaqət şəxsiyyətin daxili özünüqiymətləndirilməsi, onun öz şəxsi keyfiyyətlərini, dünyagörüşünü, yerinə yetirilmiş borcunu və öz ictimai əhəmiyyətini dərk etməsidir. Deməli, özünüqiymətləndirmə şəxsiyyətin mənəvi və digər keyfiyyətlərinin qiymətləndirilməsinin sosial əhəmiyyətli meyarlarına əsaslanmalıdır[9].

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində "Şəxsiyyətin azadlığı və ləyaqəti əleyhinə olan cinayətlər" fəslinin 147-ci (Böhtan) və 148-ci (Təhqi) maddələri şərəf və ləyaqətin müdafiəsini nəzərdə tutan maddələrdir. Cinayət Məcəlləsində təhqir və böhtandan əlavə bir sıra cinayətlər vardırki, həmin cinayətlərin əsas və ya əlavə obyekti şərəf və ləyaqətdir. Həmin cinayətlərin ayrı-ayrılıqda tədqiqi zəruridir. Tədqiqat işində həmin cinayətlərin tədqiq edilməsi dissertasiyanın aktuallığını qiymətləndirməyə əsas verir.

Bundan əlavə, Cinayət Məcəlləsində yer alan təhqir cinayəti ilə yanaşı, təhqirlə bağlı bir sıra xüsusi normaların, böhtan və ona oxşar normaların mövcudluğu bu normalar arasında oxşar və fərqli cəhətlərin müəyyən edilməsi cinayətlərin tövsifi üçün zəruridir.

Tədqiqat işinin aktuallığını artıran məsələlərdən digər biri isə bu cinayətlərin ilk cinayət qanunvericiliyimizdə, yəni Azərbaycan İctimai Şura Cümhuriyyətinin 1922-ci il Cəza Məcəlləsində (Təhqir (maddə 172,173), Böhtan (maddə 174,175)), Azərbaycan İctimai Şura Cümhuriyyətinin 1927-

[6] Allahverdiyev S.S. Şərəf, ləyaqəti və işgüzar nüfuzun mülki-hüquqi üsullarla məhkəmə müdafiəsi. Bakı: "Digesta" nəşriyyatı, 2006, s.2-21

[7] Полный курс уголовного права. В 5 томах. Под ред. А.И.Коробеева. Том II. Преступления против личности. Изд-во Р. Асланова "Юридический центр Пресс", 2008, с. 447.

[8] Ярошенко К.Б. Сизнь и здоровье под охраной закона. Грасданско-правовая защита личных неимущественных прав грасдан. М., "Юрид.лит", 1990, с. 160-161.

[9] Abbasov R. Şərəf, ləyaqət və işgüzar nüfuzun mülki-hüquqi müdafiəsi. Bakı: "Araz" nəşriyyatı, 2002, s. 13.



ci il Cəza Məcəlləsində (Təhqir (maddə 202, 204, Böhtan 205)), Azərbaycan SSR-nin 1960-cı il Cinayət Məcəlləsində (Təhqir (maddə 122), Böhtan (maddə 121)) və Azərbaycan Respublikasının 1999-cu il Cinayət Məcəlləsində (Təhqir (maddə 148), Böhtan (maddə 147)) yer alması və ən əsası 1922-ci ildən indiyə qədər bu maddələrə edilən çox saylı dəyişiklik edilməsinə baxmayaraq uğurlu, tam dolğun nəticənin əldə edilməməsidir.

Cinayət Məcəlləsinə yeni, yəni 29 noyabr 2016-cı il Qanunu ilə əlavə edilmiş "İnternet informasiya ehtiyatında saxta istifadəçi adlar, profil və ya hesablardan istifadə edərək böhtan atma və ya təhqir etmə" adlı 148-1-ci maddənin əlavə edilməsi cəmiyyətdə bu problemin aktual olduğunu bir daha təsdiqləyir.

Azərbaycan dövləti və onun qanunvericiliyi insanların şərəf və ləyaqətlə bağlı hüquqları pozulduğu hallarda qoruyur. Bu təminatlara uyğun olaraq hər bir insan pozulmuş hüquqların bərpası hüququna malikdir. Hər bir kəs qanuna zidd olmayan bütün üsullarla öz hüquqlarını, qanuni maraqlarını qorumaqda haqlıdır. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində yer alan 147 və 148-ci maddələri (böhtan və təhqir) ölkəmizdə şəxslərin şərəf və ləyaqətinin yüksək qiymətləndirildiyini göstərir və şərəf və ləyaqətin alçaldığı zamanı cinayət məsuliyyətinin yaranmasını istisna etmir. Cinayət Məcəlləsində bu maddələrin mövcudluğu müsbət hal olsa da, müəyyən qüsurların mövcudluğu qaçılmazdır. Dissertasiya işində həmin qüsurlar yeri gəldikcə qabardılır, təhlil edilir, təklif və tövsiyyələr irəli sürülür.

**Mövzunu elmi işlənilmə dərəcəsi**. Şərəf və ləyaqət əleyhinə edilən cinayətlərlə mübarizə məsələləri geniş araşdırılmayan mövzulardandır. Respublikamızda Şərəf və ləyaqətin konstitusion, mülki qaydada müdafiəsi alimər tərəfindən tədqiq edilsə də, cinayət qanunvericiliyi üzrə tədqiq edilməmişdir.

**Tədqiqatın obyektini** şərəf və ləyaqət əleyhinə edilən cinayət əməlləri ilə mübarizə sahəsində mövcud olan ictimai münasibətlər təşkil edir.

**Tədqiqatın predmetini** bü növ əməllərlə mübarizənin cinayət-hüquqi əsasları, Azərbaycan Respublikasının qüvvədən düşmüş cinayət qanunları və hazırda qüvvədə olan cinayət qanunu, məhkəmə təcrübəsinin materialları, mövzunun ayrı-ayrı istiqamətlərinə həsr olunmuş xüsusi hüquq ədəbiyyatları təşkil etmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri**. Tədqiqat işinin əsas məqsədi qüvvədə olan cinayət qanununda adları keçən "şərəf" və "ləyaqət" terminlərinin fəlsəfi anlayış kimi araşdırılmasını aparmaq, şərəf və ləyaqət əleyhinə olan cinayətləri tədqiq etmək, təsnifatını aparmaq, onların oxşar və fərqli cəhətlərini

müəyyən etmək, xarici ölkələrin cinayət qanunvericiliyində yer alan şərəf və ləyaqət əleyhinə olan cinayətləri müqayisəli təhlil etmək və bu cinayətlərə qarşı mübarizədə elmi əsaslandırılmış konkret təklif və tövsiyyələrin işlənib hazırlanmasından ibarətdir.

Tədqiqatın məqsədinə nail olmaq üçün qarşıya aşağıdakı **vəzifələr** qoyulmuşdur:

-"şərəf" və "ləyaqət"i fəlsəfi anlayış kimi təhlil etmək;

-"vətəndaş", "şəxsiyyət", "insan"-bu məfhumları fərqləndirmək;

-Azərbaycan Respublikasının Cinayət Məcəlləsində şərəf və ləyaqət əleyhinə edilən cinayətləri araşdırıb, onların hər birini təhlil etmək və bir sıra meyarlara görə təsnifatını aparmaq;

-şərəf və ləyaqət əleyhinə olan cinayətlərin-böhtan və təhqirin tarixi mənbələrini araşdırmaq;

-Azərbaycan cinayət qanunvericiliyi üzrə böhtan və təhqirin inkişaf tarixini araşdırmaq;

- böhtanı cinayət-hüquqi xarakterli anlayış kimi təhlil etmək;

-böhtan cinayətinin obyektiv əlamətlərini araşdırmaq;

-böhtan cinayətinin subyektiv əlamətləri haqqında araşdırma aparmaq;

-böhtan cinayətinin tövsifedici halları və onun digər oxşar cinayət tərkiblərindən fərqlərini müəyyən etmək;

-cinayət qanunvericiliyində və mülki qanunvericilikdə böhtanın müqayisəli təhlilini aparmaq;

-böhtan və diffamasiya-oxşar və fərqli xüsusiyyətlərini ayırd etmək;

-bir sıra xarici ölkələrin cinayət qanunvericiliyində nəzərdə tutulan böhtan cinayəti ilə milli qanunvericilikdə yer alan böhtan cinayətinin oxşar və fərqli cəhətlərini müəyyən etmək;

- təhqiri-cinayət-hüquqi xarakterli anlayış kimi təhlil etmək;

-təhqir cinayətinin obyektiv əlamətlərini araşdırmaq;

-təhqir cinayətinin subyektiv əlamətləri haqqında araşdırma aparmaq;

-təhqir cinayətinin digər cinayət tərkiblərindən fərqlərini müəyyən etmək;

- bir sıra xarici ölkələrin cinayət qanunvericiliyində nəzərdə tutulan təhqir cinayəti ilə milli qanunvericilikdə yer alan təhqir cinayətinin oxşar və fərqli cəhətlərini müəyyən etmək.

**Tədqiqatın metodoloji əsasları**. Metodologiyanın ümumelmi və xüsusi elmi metodların məcmusu olduğunu nəzərə almaqla, dissertasiyanın yazılmasında qarşıda duran məqsəd və vəzifələrin həyata keçirilməsi üçün



idrak nəzəriyyəsinin əksər metodlarından, xüsusi elmi, habelə sahəvi metodlardan da istifadə edilmişdir. Həmin metodlar aşağıdakılardır: analiz, sintez, müqayisəli tədqiqat, məntiqi, tarixi yanaşma, kompleks yanaşma, ümumiləşdirmə, qruplaşdırma, sistemli təhlil, modelləşdirmə, tarixi-hüquqi, müqayisəli hüquqi təhlil və s.

**Tədqiqatın nəzəri əsasını** əsaslandırmaq üçün fəlsəfə, hüquq nəzəriyyəsi, konstitusiya hüququ, beynəlxalq hüquq, mülki hüquq, cinayət hüququ kimi müxtəlif hüquq sahələrinin elmi müddəalarına istinad edilmiş, bu məqsədlə həmin elm sahələrinə aid müvafiq dərsliklər, monoqrafiyalar, elmi məqalələr və s. ədəbiyyatlar nəzərdən keçirilmişdir. Belə ki, dissertasiyada cinayət hüququ üzrə tədqiqatlar aparmış hüquqşünas alimlərdən F.Y. Səməndərov, İ.M.Rəhimov, Ş.T.Səmədova, M.B.Əhmədov, İ.B.Ağayev, K.O.Nəzərova, H.S.Qurbanov, R.İ.Quliyev, R.X.Abbasov, E.T.Səlimov, Ç.Bekkaria, Pagliaro, A.İ.Karabeev, S.V.Tasakov, A.İ.Raroq, Y.M.Tkaçevski, İ.L.Maroqulova, Dəvrim Aydın, Mustafa Özən, Muharrəm Özən, Zəki Hafiz oğulları, Minə Arısoyun və başqa müəlliflərin əsərlərindən istifadə edilmişdir.

**Tədqiqatın normativ əsasını** beynəlxalq hüquqi aktlar, Azərbaycan Respublikasının Konstitusiyası, qüvvədən düşmüş və hazırda qüvvədə olan cinayət qanunları, bəzi xarici dövlətlərin cinayət qanunvericilik aktları təşkil etmişdir.

**Tədqiqatın empirik əsasını** şərəf və ləyaqət əleyhinə edilən cinayətlərlə bağlı Bakı şəhəri Yasamal Rayon, Bakı şəhəri Səbail Rayon, Bakı şəhəri Binəqədi Rayon, Göyçay Rayon, Şəki Rayon Məhkəmələrində, Bakı Apellyasiya və Şəki Apellyasiya Məhkəmələrində, o cümlədən, Azərbaycan Respublikası Ali Məhkəməsində baxılmış cinayət işlərinin materialları təşkil edir.

**Dissertasiyanın elmi yeniliyi** aşağıdakılada ifadə olunur:

1) dissertasiya, Azərbaycan Respublikasının Cinayət Məcəlləsindədə şərəf və ləyaqət əleyhinə edilən ictimai təhlükəli əməllərin o cümlədən, böhtan və təhqirin cinayət hüquqi nöqteyi nəzərindən kompleks şəkildə araşdırılmasına həsr olunmuş monoqrafik xarakterli ilk tədqiqat işidir.

2) dissertasiyada ilk dəfə olaraq, cinayət məcəlləsində təhqir və böhtan cinayətindən başqa şərəf və ləyaqətin alçaldığı 20-yə yaxın cinayət araşdırılmış və müvafiq meyarlara görə həmin cinayətlərin təsnifatı aparılmışdır.

3) tədqiqat işində böhtan cinayəti cinayət məcəlləsində ona oxşar 12 cinayətlə müqayisə edilmiş oxşar və fərqli cəhətləri təhlil edilmişdir.

4) bir sıra xarici ölkələrin cinayət qanunvericiliyində nəzərdə tutulan böhtan və təhqir cinayətini milli qanunvericilikdə nəzərdə tutulan böhtan və təhqir cinayəti ilə müqayisəli təhlili verilmişdir.

Tədqiqat işinin elmi yeniliyini özündə ifadə edən aşağıdakı **yeni elmi müddəalar** müdafiəyə təqdim olunur:

**1**. Şərəf və ləyaqət bir-birilə sıx bağlıdır. Hüquq ədəbiyyatlarında, qanunvericilikdə şərəf və ləyaqət anlayışları məna fərqinə varmadan bir yerdə işlədilir. Bunların əsasında vahid əxlaq və mənəviyyat meyarı durur. İnsanda şərəf və ləyaqət hissi və onların dərk edilməsi üzvü vəhdət təşkil edir. Lakin şərəf və ləyaqət arasında fərqlər də mövcuddur və bu anlayışları eyniləşdirmək olmaz. Şərəf və ləyaqət kateqoriyaları bir-birlərinə yaxındılar amma eyni deyirlər. Şərəf və ləyaqət anlayışının bir-birindən fərqləndirilməsinin praktik əhəmiyyəti var. Cinayət Məcəlləsinin 147 və 148-ci maddələrində ləyaqətin alçaldılması ilə yanaşı şərəfin alçaldılması da nəzərdə tutulsa da, bu maddələrin daxil olduğu fəslin adında ancaq ləyaqət anlayışından bəhs edilir. Bundan əlavə fəsilin adında "şəxsiyyətin ləyaqəti" anlayışından istifadə edilir ki, bunu doğru hesab etmirəm. Hətta bir çox müəlliflər öz tədqiqat işlərində "vətəndaşın ləyaqəti", "vətəndaşın şərəfi", yaxud "şəxsiyyəti şərəfi", "şəxsiyyətin ləyaqəti" anlayışından istifadə edirlər ki, əbəttə ki, bunu qəbul etmək düzgün deyil. Çünki, Azərbaycan Respublikasının Konstitusiyasının 52-ci maddəsinin məzmununa nəzər saldıqda görürük ki, vətəndaş dedikdə yalnız, Azərbaycan Respublikasının ərazisində və ya Azərbaycan Respublikasının vətəndaşlarından doğulmuş, o cümlədən valideynlərindən biri Azərbaycan Respublikasının vətəndaşı olan şəxslər Azərbaycan Respublikasının vətəndaşı sayılır.

"Şəxsiyyət" məfhumuna gəldikdə isə, Azərbaycan, rus və ingilis dillərində eyni etimologiyaya malikdir. Azərbaycan dilində "şəxsiyyət" sözü öz əsasını ərəb sözü olan "şəxs" sözündən götürmüş və hər hansı bir konkret şəxsi, simanı bildirir. Şəxsiyyət insanın psixoloji siması olub, şüura, mənliyə malik olan, öz hərəkətlərinə cavabdeh, ictimai münasibətlərin fəal iştirakçısı olan adamdır. Şəxsiyyət müəyyən ictimai-tarixi dövrdə yaşayıb fəaliyyət göstərən, gerçəkliyi dərk edib müəyyən istiqamətdə dəyişdirən, ünsiyyətə girməyi bacaran konkret canlı insandır.

"İnsan" isə ucu bucağı bilinməyən kainatda unikal mövqeyə sahibdir. Ruhu ilə, cəsədi ilə Allahın ən qədim sənət əsəridir.

Vətəndaş və şəxsiyyət anlayışına nəzər saldıqda, bu anlayışların dar çərçivəyə sahib olduğunu görürük. Bu səbəbdən ***təklif edilir ki,*** "vətəndaşın ləyaqəti", "vətəndaşın şərəfi", yaxud "şəxsiyyəti şərəfi", "şəxsiyyətin ləyaqəti" anlayışları "insanın şərəfi", "insanın ləyaqəti" anlayışı ilə əvəz edilsin və fəsilin adına "şərəf" sözü əlavə edilərək Cinayət Məcəlləsinin XIX fəsli aşağıdakı redaksiyada verilsin: *"İnsanların azadlığı, şərəf və ləyaqəti əleyhinə olan cinayətlər"* .



**2.** Tədqiqat işində nəzərdə tutulan elmi yeniliklərdən biri CM-nin 111-ci maddəsi yəni, "İrqi-ayrıseçkilik (aparteid)" cinayəti ilə bağlıdır. Bildiyimiz kimi bu cinayətin əlavə obyekti qismində insanların ləyaqəti çıxış edir. Burada mötərizədə "aparteid" yazılmışdır. Burada mötərizənin olması bu anlayışların eynimənalı anlayış olmasını bildirir. Lakin, "irqi-ayrıseçkilik" və "aparteid" haqqında Konvensiyalara nəzər saldıqda bizim Məcəllədə nəzərdə tutulan anlayışın yalnız aparteidi əhatə etdiyini görmək olur. Yəni bu maddə irqi-ayrıseçkiliyi əhatə etmir. Bu maddənin məzmunu aparteidin anlayışına uyğundur. Ona görə bu maddə ilə bağlı ***təklif edilir ki***, maddənin adı dəyişdirilərək aşağıdakı redaksiyada verilsin: Maddə 111. *Aparteid*

**3**. Bildiyimiz kimi ölkəmiz erməni təcvüzünə məruz qalmış ölkədir. Ermənilər Xocalı şəhərindən əsir düşən hamilə qadınların qarınları əsgər bıçağı ilə cırılır, bətnindəki usaq itlərə yem edilir, qadının daxilinə giliz, diri pişik, ilan, qurbağa, siçan və s. doldurulur, yaranı tikir və qadının əzablar içərisində ölməsinə baxırdılar; əsirlərin əllərini və ayaqlarını taxta parçasına mismarlayır, başlarına mıx vururlar; əsirlərin əllərini ağaca bağlayır və pnevmatik mismar vuran aparatla onun gözünü nişan alıb vururdular; əsirləri ac saxlayır, onlara şüşə, mismar, dəmir parçaları, öz nəcislərini yeməyə məcbur edirdilər; əsirləri imkanlı ermənlər alır, öz bağlarında it damında saxlayır, boğazlarına zəncir taxır və it kimi durmağa və hürməyə məcbur edirdilər; əsir düşən yaralı əsirlərin üzərinə kislota, benzin, qaynanmış yağ və s. tökürdülər; əsirləri sıraya düzür dırnaqlarını qopardır, dərilərini ülgüclə soyurdular; qadın və qızları lüt formada otağın ortasından asır, onlarin bədənlərinə tüpürürdülər və s. Tətbiq edilən bu əməllər işgəncə xarakterli olmağı ilə yanaşı həm də bir başa şərəf və ləyaqəti alçaldan hərəkətlərdir. Ermənilərin Xocalı şəhərində mülki əhaliyə, hücum etməsi, onları əsir götürməsi və insanlığa məlum olmayan işgəncələr verməsi 116.10-cu maddəyə aşağıdakı təklifi verməyə əsasdır. ***Təklif edilir ki,*** bu bəndə yəni, 116.0.10-a "onları əsir götürmə və ya onlara işgəncə vermə" sözləri əlavə edilsin və aşağıdakğı redaksiyada verilsin:

116.0.10. mülki əhaliyə və ya döyüşlərdə iştirak etməyən ayrı-ayrı mülki şəxslərə hücum etmə, *onları əsir götürmə və ya onlara işgəncə vermə.*

**4**. Cinayət Məcəlləsinin 147-ci maddəsinin tələbinə görə böhtana görə cinayət məsuliyyətinin yaranması üçün məlumatın yalan olduğunu bilə-bilə, hər-hansı şəxsin şərəf və ləyaqətini ləkələyən və ya onu nüfuzdan

salan məlumatları kütləvi çıxışlarda, kütləvi nümayiş etdirilən əsərdə, kütləvi informasiya vasitəsində və ya kütləvi nümayiş etdirildiyi halda internet informasiya ehtiyatında yaymalıdır. Yuxarıda qeyd etdiyimiz kimi kütləvi çıxış dedikdə, hər hansı şəxsin şərəf və ləyaqətini alçaldan və ya onu nüfuzdan salan məlumatları ən azı iki nəfər kənar şəxsin görə, eşidə və ya qavraya biləcəyi formada ifadə etmə başa düşülür. Bu anlayışdan belə nəticəyə gəlmək olar ki, şəxs yalan olduğunu bilə-bilə, şərəf və ləyaqəti ləkələyən, nüfuzdan salan məlumatları on nəfər şəxsə tək-tək deyərək yaysa 147-ci maddə üzrə tərkib yaranmayacaq. Bundan əlavə, 29 noyabr 2016-cı il Qanunu ilə Məcəlləyə əlavə edilən "İnternet informasiya ehtiyatında saxta istifadəçi adlar, profil və ya hesablardan istifadə edərək böhtan atma və ya təhqir etmə" adlı 148-1-ci maddənin ayrı bir maddə kimi məcəlləyə daxil edilməsini doğru saymıram. Çünki əlavə edilən bu maddə qeyd edilən cinayətlərin (böhtan və təhqirin) törədilmə üsuludur. Biz hər bir cinayətin törədilmə üsulunu ayrı maddə kimi məcəlləyə daxil etsək, o zaman məcəllənin yükünü artırmış olarıq. Bu səbəbdən bu maddənin məcəllədən çıxarılmasını və "internet informasiya ehtiyatında saxta istifadəçi adlar, profil və ya hesablardan istifadə edərək böhtan atma"-nı 147-ci maddəyə ağırlaşdırıcı hal kimi əlavə edilməsini məqsədə uyğun hesab edirəm. 147-ci maddənin 1-ci hissəsinini sanksiyasından isə cərimə cəzasının çıxarılmasını təklif edərdim. Çünki, maddənin sanksiyasında nəzərdə tutulan cərimənin miqdarı insanın fiziki mövcudluğunu müəyyən edən hüquqlarından olan şərəfinin, ləyaqətinin, nüfuzunun cinayət qəsdlərindən qorunmasında səmərəli olmayacaq. Ölkəmizin iqtisadi inkişaf səviyyəsinə görə maddənin sanksiyasında nəzərdə tutulan cərimə cəzasının səmərəliliyi ağlabatan deyil. Beləliklə, maddənin dispoziyasından "Kütləvi nümayiş etdirildiyi halda internet informasiya ehtiyatında" sözlərinin çıxardılmasını, "məlumatları" sözünü "məlumat və ya məlumatları" sözləri ilə əvəz etməklə, qeyd edilən təkliflər ümumiləşdirərək son nəticədə 147-ci maddənin aşağıdakı redaksiyada verilməsi ***təklif edilir***:

*Maddə 147. Böhtan*

*147. 1. Böhtan, yəni yalan olduğunu bilə-bilə, hər-hansı şəxsin şərəf və ləyaqətini ləkələyən və ya onu nüfuzdan salan məlumat və ya məlumatları yayma-*

*iki yüz qırx saatdan dörd yüz səksən saatadək müddətə ictimai işlər və ya bir ilədək müddətə islah işləri və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.*

*147.2. Eyni əməllər:*



*147.2.1.yalan olduğunu bilə-bilə, hər-hansı şəxsin şərəf və ləyaqətini ləkələyən və ya onu nüfuzdan salan məlumat və ya məlumatları kütləvi çıxışlarda, kütləvi nümayiş etdirilən əsərdə, kütləvi informasiya vasitəsində yayma;*

*147.2.2. ağır və ya xüsusilə ağır cinayətdə ittiham etməklə böhtan atma;*

*147.2.3. internet informasiya ehtiyatında saxta istifadəçi adlar, profil və ya hesablardan istifadə edərək böhtan atma-*

*iki ilədək müddətə islah işləri və ya üç ilədək azadlığın məhdudlaşdırılması və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.*

*147.3. Bu Məcəllənin 147.1. və 147.2-ci maddələrində nəzərdə tutulan hərəkətlər ağır nəticələrə səbəb olduqda-*

*beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.*

**5**. Qüvvədə olan qanunvericilik şərəf və ləyaqətin alçaldılması ilə bağlı bir sıra məsələlərə toxunsa da, fikrimcə, bir sıra boşluqlar mövcuddur. Belə ki, qanunvericilik yalniz şərəf və ləyaqətin kütləvi formada alçaldıldığı halda cinayət məsuliyyətinin yaramasını tələb edir. Daha sonra qanunvericilk iki və daha çox şəxsin təhqir edilməsini tövsifedici hal kimi nəzərdə tutmur. Bu və digər halları nəzərə alaraq Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 148-ci maddəsində nəzərdə tutulan "Təhqir" cinayətinin aşağıdakı redaksiyada verilməsi təklif edilir:

**Maddə 148. Təhqir**

*148.1. şəxsin şərəf və ləyaqətini qəsdən nalayiq formada alçaltma-*

*üç yüz iyirmi saatdan dörd yüz səksən saatadək müddətə ictimai işlər və ya iki ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.*

*148.2. Eyni əməllər:*

*148.2.1.iki və daha çox şəxsin şərəf və ləyaqətini qəsdən nalayiq formada alçaltma;*

*148.2.2. vəzifəsindən istifadə edərək şəxsin şərəf və ləyaqətini nalayiq formada alçaltma;*

*148.2.3.kütləvi çıxışlarda, kütləvi nümayiş etdirilən əsərdə, kütləvi informasiya vasitəsində şəxsin şərəf və ləyaqətinin nalayiq formada qəsdən alçaltma;*

*148.2.4. internet informasiya ehtiyatında saxta istifadəçi adlar profil və ya hesablardan istifadə edərək şəxsin şərəf və ləyaqətini alçaltma-*

*iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.*

*148.3. Bu Məcəllənin 148.1 və 148.2-ci maddələrində nəzərdə tutulan hərəkətlər ağır nəticələrə səbəb olduqda-*

*beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.*

**6.** "Qəbir üzərində təhqir edici hərəkət" adlanan 245-ci maddənin çıxarılaraq, 148-1 "*Ölmüş şəxsin xatirəsinin və cəsədinin təhqir edilməsi*" adlı maddənin əlavə edilməsini təklif edilir.

**7**. Prezidentin şərəf və ləyaqətinin təhqir edilməsi onun xidməti peşə və vəzifə ləyaqətini zədələyir və öz fəaliyyətini normal həyata keçirməsinə mane olur. Bu maddənini məqsədi Prezidentin normal iş fəaliyyətinin təmin edilməsidir. Fikrimcə, yalnız Prezidentin özünün deyil, onun ailə üzvlərinin də ləyaqətinin alçaldılması onun iş fəaliyyətini sarsıda bilər. Buna görə də ***təklif edilir ki,*** CM-nin 323-cü maddəsində Azərbaycan Respublikası Prezidentinin sözündən sonra "və onun ailəsinin" sözü əlavə edilsin və aşağıdakı redaksiyada verilsin:

Maddə 323. Azərbaycan dövlət başçısının-Azərbaycan Respublikası Prezidentinin və onun ailəsinin şərəf və ləyaqətini ləkələmə və ya alçaltma.

Qeyd edim ki, Cinayət Məcəlləsinin 323.1-ci maddəsinin dispozisyasında "kütləvi informasiya vasitəsi" anlayışı "internet informasiya ehtiyatını" da əhatə etdiyi üçün məntiqi baxımdan bizə əsas verir ki, "internet informasiya ehtiyatı" çıxarılsın.

Bundan əlavə təklif edərdim ki, Azərbaycan Respublikasının 29 noyabr 2016-cı il tarixli Qanunu ilə Cinayət Məcəlləsinə ayrı maddə kimi əlavə edilən 323.1-1-ci maddə 323-cü maddənin törədilməsinin bir üsulu olduğu üçün ayrı maddə kimi deyil, 323-cü maddəyə ağırlaşdırıcı hal kimi 323.2-ci maddənin 1-ci hissəsinə əlavə edilsin və sanksiyanını yuxarı həddi 6 il nəzərdə tutulsun.

Bu əmələ görə tətbiq edilən cəza növlərinə gəldikdə isə, 29 noyabr 2016-cı il tarixli Qanunla edilən dəyişikliyin uğurlu tərəfi bu maddəninin yəni 323-cü maddənin sanksiyası ilə, yəni cərimə cəzasının çıxarılması ilə bağlı olan dəyişiklikdir (qeyd edək ki,CM-nin 323-cü maddəsinin sanksiyasından cərimə cəzasının çıxarılması ilkin müdafiədə təklif edilmişdi).

Çünki yüksək gəliri gələn şəxs üçün bu cəzanın tətbiqi effekt veməyəcək bu cəzanın nəticəsi olmayacaqdı. Nəzərdə tutulan cərimənin məbləğinin yüksəldilməsi isə eyni səbəbə görə lüzumsuz hesab edilir. Nəticə olaraq maddənin aşağıdakı redaksiyada verilməsi ***təklif edilir***:



*Maddə 323. Azərbaycan dövlət başçısının-Azərbaycan Respublikası Prezidentinin və onun ailəsinin şərəf və ləyaqətini ləkələmə və ya alçaltma.*

*323.1. Azərbaycan dövlət başçısının-Azərbaycan Respublikası Prezidentinin və onun ailəsinin şərəf və ləyaqətini kütləvi çıxışda, kütləvi nümayiş etdirilən əsərdə və ya kütləvi informasiya vasitəsində ləkələmə və ya alçaltma-*

*iki ilədək müddətə islah işləri və ya eyni müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.*

*323.2. Eyni əməllər*

*323.2.1. internet informasiya ehtiyatında saxta istifadəçi adlar, profil və ya hesablardan istifadə edərək kütləvi nümayiş etdirməklə törədildikdə;*

*323.2.2. ağır və xüsusilə ağır cinayətdə ittiham etməklə törədildikdə-*

*üç ildən altı ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılsın.*

**8**. Cinayət Məcəlləsinin 148-ci maddəsinə təklif etdiyim dəyişikliklə əlaqədar (*148.2.2. vəzifəsindən istifadə edərək şəxsin şərəf və ləyaqətini nalayiq formada alçaltma*) 331-ci maddədən yəni "hərbi qulluqçunu təhqir etmə, döymə və ya işgəncə" vermədən "*təhqir etmənin*" çıxarılmasını ***təklif edilir***.

**9**. Böhtan və təhqir bəzən ağır nəticələrə, məsələn intahara, agır xəstəliklərə (insult, infarkt) və digər ağır nəticələrə səbəb ola bilər. Bu səbəbdən təklif olunur ki, insanların həyatı və sağlamlığı bu cinayətlərin fakultətiv obyekti kimi çıxış etsin.

**Tədqiqatın nəzəri əhəmiyyəti.** Şərəf və ləyaqət əleyhinə edilən cinayətlərlə mübarizənin normativ hüquqi bazasının nəzəri və praktiki əsaslarının təkmilləşdirilməsi ilə müəyyən olunur. Tədqiqat nəticəsində əldə edilmiş nəzəri nəticələr, qanunvericiliyə dəyişikliklərlə bağlı irəli sürülmüş elmi-praktiki təkliflər Qanunverici orqan tərəfindən nəzərə alına, ali məktəblərin hüquq fakültələrində, "Cinayət hüququ" və "Şəxsiyyət əleyhinə edilən cinayətlər" fənləri tədris edilərkən istifadə edilə, şərəf və ləyaqət əleyhinə edilən cinayətlərlə mübarizədə hüquq mühafizə orqanları üçün nəzəri və praktiki əhəmiyyət kəsb edə bilər. O cümlədən, gələcəkdə bu sahədə elmi-araşdırmalar aparılarkən nəzəri baxımdan baza kimi istifadə edilə bilər.

**Tədqiqatın təcrübi əhəmiyyəti.** İşin təcrübi əhəmiyyəti ondan ibarətdir ki, burada əksini tapan elmi nəticələr və təkliflər şərəf və ləyaqət

əleyhinə edilən cinayətlərə görə məsuliyyət nəzərdə tutan qanunvericiliyin düzgün tətbiqinə kömək edə bilər, bu sahədə müvafiq qanunvericiliyin təkmilləşdirilməsi və məhkəmə təcrübəsinin optimallaşdırılması üçün faydalı ola bilər.

**Tədqiqatın nəticələrinin aprobasiyası.** Dissertasiya işi Bakı Dövlət Universitetinin "Cinayət hüququ və kriminologiya" kafedrasında yerinə yetirilmiş və müzakirə olunaraq əsas müdafiəyə tövsiyə edilmişdir. Dissertasiyanın əsas məzmunu, cinayət qanunvericiliyinin və hüquq tətbiqetmə fəaliyyətinin təkmilləşdirilməsinə dair təkliflər müəllifin çap edilmiş məqalə və konfrans materiallarında elmi ictimaiyyətin diqqətinə çatdırılmışdır.

**Dissertasiyanın strukturu** tədqiqatın məqsəd və vəzifələrinə uyğun müəyyən edilmiş, giriş, doqquz yarımfəsli əhatə edən dörd fəsil, nəticə, istifadə olunmuş ədəbiyyat siyahısı və əlavələrdən ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiyanın **giriş hissəsində** tədqiqat mövzusunun aktuallığı əsaslandırılır, problemin elmi işlənilmə dərəcəsi, tədqiqatın məqsədi, vəzifələri, predmeti, obyekti, müəyyən edilir, nəzəri, təcrübi, normativ və metodoloji əsasları göstərilir, elmi yeniliyi, nəzəri və təcrübi əhəmiyyəti açıqlanır, müdafiəyə çıxarılan əsas müddəalar təqdim edilir, həmçinin, tədqiqat işinin quruluşu və nəticələrinin aprobasiyası haqqında məlumat verilir.

Dissertasiyanın birinci fəsli **"Şərəf və ləyaqət əleyhinə edilən cinayətlər"** adlanır və iki yarımfəsildən ibarətdir.

Birinci yarımfəsil **"Şərəf və ləyaqətin fəlsəfi anlayışı"** adlanır. Bu yarımfəsildə şərəf və ləyaqət anlayışı fəlsəfi anlayış kimi təhlil edilir. Qeyd edilir ki,ümumiyyətlə şərəf və ləyaqət haqqında məsələ ən kəskin və ən gərəkli problemlərdən biri olub və olmaqdadır. "Şərəf", "ləyaqət" anlayışı hüquqşünasların tədqiqat obyekti olmaqla yanaşı, həmçinin qədim yunan filosoflarının müzakirə predmeti olmuş, B.Franklin, Volter, Russo, Monteskyö, M.Monten, F.Şiller, A.Şopenqauer, Vovenarq, Bekkariya, R.Emerson, Dostoyevski, Çernışevski kimi dahi mütəfəkkirlərin diqqətindən kənar qalmamışdır. Sadalanan mütəfəkkirlərin şərəf və ləyaqət anlayışlarına münasibəti öyrənilmiş, bunlarla yanaşı yerli və xarici hüquqşünas alimlərin fikirləri təhlil edilmişdir.



Şərəf-insanın ictimai və şəxsi davranışında tutduğu mənəvi-əxlaqi prinsiplərin məcmusu olub, mənəvi yüksəklik, ululuq, heysiyyət deməkdir[10].

Dünya şöhrətli Azərbaycan alimi Nəsrəddin Tusinin özünün "Əxlaqi-Nasiri" əsərinin "İnsan bu dünyadakı mövcudatın ən şərəflisidir" hökmü haqqında adlı dördüncü fəslində "şərəf"ə maraqlı yanaşması var.

Müəllif qeyd edir ki, təbiət cisimləri cisimlik nöqteyi-nəzərindən bir-birinə bərabərdir, heç biri o birisindən heç nədə, nə şərəfdə, nə də fəzilətdə üstün deyildir, çünki onların hamısının bir mənəvi mahiyyəti, bir ilk madiyyatı vardır[11].

XVI əsrdə yaşamış ispan dramaturqu Kalderon "şərəf" anlayışına fərqli yanaşmış, "şərəfi" qarla müqayisə etmişdir. "Şərəf qara bənzəyir, onun üstündə gəzdikcə, ayaq izləri altında onun bəyazlığı çirklənir"[12].

Dahi Şekspir şərəfi belə qiymətləndirirdi: "Mənim şərəfim mənim həyatımdır; hər ikisi eyni kökdən böyüyür. Şərəfimi alsanız, həyatımın sonu gəlib deməkdir"[13]. Şərəf haqqında fransız dramaturqu P.Kornelin fikirləri Şekspirin fikirləri ilə məzmun baxımından eynidir. O, qeyd edirdi ki, şərəfimiz öldüyü zaman bizim yaşamağa haqqımız yoxdur. Mən bütün bədbəxtliklərə dözə bilərəm, amma şərəfimin ləkələnməsinə razı olmaram[14].

Amerkalı siyasi xadim B.Franklinə görə əsl şərəf odur ki, bütün hallarda insanların xeyrinə qərar qəbul edə biləsən, yalnız mümkün olan hallarda bunu hər kəs bacarar[15].

Fransız filosofu Volter "şərəf" haqqında yazırdı: Şərəf-hörmət qazanmaq arzusudur. Şərəf fəzilət kimi qəbul edilən boş bir ruhdur, ədalət deyil, haqsızlıq qorxusu deyil, şöhrət sevgisidir. Şərəfi şöhrətdə axtarmayın! Şərəf –"ürəkdədir". Şərəf-əxlaqın əlində brilliantdır. Şərəfli insana zülüm edilə bilər, amma alçaltmaq mümkün olmaz[16].

Onlarda ilk fərqi meydana çıxaran və beləliklə, onların müxtəlifliyinə səbəb olan ünsürləri və başqa xüsusiyyətlərini qarşılaşdıraraq, birinin o birisinə nisbətən nədə isə üstün olduğunu bildirən ayrıca əlamət birinci mərhələdə olmur, bu dövrdə rütbəlik bərabərlik, qüvvədə müsavilik hökm sürür. Lakin ünsürlər bir-biri ilə qarışmağa və daxili əlaqəyə girməyə başladıqda onlar vahid mənəviyyata ilkin mahiyyətə daha çox yaxınlaşır

[10] Azərbaycan dilinin izahli lüğəti.http//www.obastan.com
[11] Tusi X.N.Əxlaqi-Nasiri. Bakı: "Lider nəşriyyat" nəşriyyatı, 2005, s 52
[12] http//www.stuki-druki.com/Aforizmi-Calderon.php
[13] http//www.inpearls.ru./author/willam+shakespeare
[14] http//www.best-aphorisms.ru/per-kornel
[15] http//www./Dahilerden_dahi_cümleler_Benjamin Franklin
[16] http//www.wisdoms.ru/aforizmi_volter.html.

sonra müvazinət pozulur, xasiyyət və mahiyyətdə fərqlər meydana çıxır, bəziləri o birisinə nisbətən üstün əlamətlər kəsb edir. Hansı cismin maddəsi daha tez yeni xüsusiyyətlər kəsb edib, daha asan dəyişə bilirsə, o, təbiət etibarı ilə o birlərə nisbətən daha üstün, daha şərəfli olur. Belə üstünlük və şərəfliliyin inkişaf və təkamül dərcələri olduqca çoxdur[17].

Bəzi mənbələrdə insanın əsl mülkiyyəti onun ləyaqəti hesab edilir və qeyd edilir ki, insanın öz mənsubiyyətini, özünə məxsus mülkiyyətini, yəni ləyaqətini itirməsi çox üzücüdür[18]. Digər bir mənbədə qeyd edilir ki, o insan azad insan sayılır ki, öz ləyaqətini dərk edir[19]. Ləyaqət instinkt ruhuna müqavimət göstərən məfhumdur[20]. İnsan öz ləyaqəti haqqında nə qədər az bilirsə, yaxud nə qədər onun haqqında az düşünürsə, biz o insanı bir o qədər çox bəyənirik. Bu fikri amerkalı filosof R. Emerson ləyaqəti xarakterizə edərkən vurgulayırdı[21]. A.Kniqqe ləyaqət haqqında qeyd edirdi ki, hər bir insanın ləyaqəti yalnız öz əməllərilə özünü necə göstərməsindən asılıdır[22]. Dostoyevskiyə görə, ləyaqət-insanın özünü hədsiz sevməsi və özü haqqında yüksək fikirdə olması demək deyil[23]. Rus filosofu N. Çernışevski ləyaqətli insan olmanın əsasını uşaq olarkən tətbiq edilən davranışda görürdü. O bunu belə ifadə edirdi: daha az təhqirə məruz qalan uşaq, öz ləyaqətini şüurlu surətdə dərk edən insan kimi yetişir[24].

Ləyaqət şəxsiyyətin subyektiv qiymətləndirilməsini müəyyən edir. Ləyaqət şəxsiyyətin daxili özünüqiymətləndirilməsi, onun öz şəxsi keyfiyyətlərini, dünyagörüşünü, yerinə yetirilmiş borcunu və öz ictimai əhəmiyyətini dərk etməsidir. Deməli, özünüqiymətləndirmə şəxsiyyətin mənəvi və digər keyfiyyətlərinin qiymətləndirilməsinin sosial əhəmiyyətli meyarlarına əsaslanmalıdır[25].

Birinci fəsilin yekununda müəllif, şərəf və ləyaqətlə bağlı yekun nəticəyə gələrək, öz mövqeyini bildirir.

İkinci yarımfəsil **"Azərbaycan Respublikasının Cinayət Məcəlləsində şərəf və ləyaqət əleyhinə edilən cinayətlərin təsnifatı"**

[17] Tusi X.N.Əxlaqi-Nasiri. Bakı: "Lider nəşriyyat" nəşriyyatı, 2005, s.52
[18] http://www. www.stuki-druki.com/aforizmi-Epictetus.php
[19] http:// www.moudrost.ru/avtor/auerbakh-bertold.html
[20] http:// www.wisdoms.ru / aforizmi_siller.html
[21] https://www.inpearls.ru/author/ralph+waldo+emerson.
[22] http:// www.citaty.info/man/adolf-knigge
[23] https://www.wisdoms.ru./aforizmi_fedor_dostoevskiy.html
[24] https://www.omg-mozg.ru/chernishevskiy.html
[25] Abbasov R. Şərəf, ləyaqət və işgüzar nüfuzun mülki-hüquqi müdafiəsi. Bakı: "Araz" nəşriyyatı, 2002, s. 13



adlanır. Bu yarımfəsildə şərəf və ləyaqətlə bağlı olan 20-yə yaxın cinayət (Köləlik (mad.106), irqi ayrı-seçkilik (aparteid) (mad.111), silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma (mad. 116), silahlı münaqişə zamanı hərəkətsizlik etmə və ya cinayətkar əmr vermə (mad. 117), qəflətən baş vermiş güclü ruhi həyacan vəziyyətində qəsdən adam öldürmə (mad 122), özünü öldürmə həddinə çatdırma (mad 125), insan alveri (mad. 144-1), böhtan (mad. 147), təhqir (mad.148), hədə-qorxu ilə tələb etmə (mad. 182), inhisarçılıq hərəkətləri və rəqabəti məhdudlaşdırma (mad. 199), əqdin baglanmasına və ya onun bağlanmasından imtinaya məcbur etmə (mad 201), fahişəliyə cəlb etmə (mad 243), məhkəməyə hörmətsizlik etmə (mad. 289), işgəncə, işgəncə hesab olunmayan qəddar, qeyri insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəza (mad 293), Azərbaycan dövlətinin başçısının - Azərbaycan Respublikası Prezidentinin şərəf və ləyaqətini ləkələmə və ya alçaltma (mad.323), hərbi qulluqçunu təhqir etmə, döymə və ya işgəncə vermə (mad. 331), tabelik münasibətlərində olmayan hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərin nizamnamə qaydalarını pozma (mad. 332), əsirlikdə olan hərbi qulluqçunun cinayət hərəkətləri (mad. 346)) araşdırılır, hər biri haqqında qısa şərh verilir. Yuxarda sadalanan cinayətlər təhlil edilərkən onlar arasında oxşar və fərqli cəhətlər müəyyən edilir və onların Cinayət Məcəlləsinin sistemində yerinə görə, tərkib əlamətlərinə görə, cinayətlərin kateqoriyalarına görə, təqsirin formsına görə, qəsdin formasına görə təsnifatı aparılır. AR-nın CM-də şərəf və ləyaqətin alçalması ilə bağlı olan cinayətlərin Cinayət Məcəlləsinin sistemində yerinə görə təsnifatı aparılarkən insanlıq əleyhinə olan cinayətlərə, mıharibə cinayətlərinə, həyat və sağlamlıq əleyhinə, şəxsiyyətin azadlığı və ləyaqəti əleyhinə, mülkiyyət əleyhinə, iqtisadi fəaliyyət sahəsində olan cinayətlərə, ictimai təhlükəsizlik əleyhinə olan, ictimai mənəviyyat əleyhinə olan, ədalət mühakiməsi əleyhinə olan, idarəetmə qaydası əleyhinə olan, hərbi xidmət əleyhinə olan cinayətərə aid olan cinayətlər kimi qruplaşdırılmışdı. Digər bir təsnifat isə tərkib əlamətlərinə görə aparılmışdı. Həmin təsnifata uyğun olaraq yuxarda sadalanan bənzər cinayətlər obyekt və obyektiv cəhətinə, subyekt və subyektiv cəhətinə görə qruplaşdırılmışdı. Cinayətlərin kateqoriyalarına görə isə şərəf və ləyaqət əleyhinə edilən böyük ictimai təhlükə törətməyən cinayətlər, şərəf və ləyaqət əleyhinə edilən az ağır cinayətlər, şərəf və ləyaqət əleyhinə edilən ağır cinayətlər, şərəf və ləyaqət əleyhinə edilən xüsusilə ağır cinayətlər olmaqla təsnifat aparılır. Aparılan hər bir təsnifatla bağlı cədvəl tərtib edilmişdi.

Dissertasiyanın ikinci fəsli **"Şəxsiyyətin şərəf və ləyaqəti əleyhinə**

**olan cinayətlərlə mübarizədə cinayət qanunvericiliyinin inkişaf tarixi"** adlanır və iki yarımfəsildən ibarətdir.

Birinci yarımfəsil **"Böhtan və təhqir: tarixi mənbələri"** adlanır. Bu yarımfəsildə qeyd edilir ki, şərəf və ləyaqət hüququ insanların təbii hüquqlarından biridir və şərəf və ləyaqət əleyhinə edilən cinayətlərin tarixi çox qədimdir. Təhqir və böhtan şərəf və ləyaqət əleyhinə olan cinayətlərə daxil olduğu üçün bu cinayətlərin də tarixi qədim dövrə təsadüf edir. Manu qanunlarında, Afina hüququnda, Klassik dövrün Roma hüququnda təhqir və böhtanın tarixinə nəzər salınır. Belə ki, Hindistanda mövcud olan və brahmanların aliliyini, qüdrətini və yüksək təbii qüvvələrlə əlaqəsini təsdiq edərək brahmanist xarakter daşıyan Manu qanunlarında böhtan, söz və ya hərəkətlə təhqir etmə və zorlama cinayətlərini nəzərdə tutan "Şərəf və ləyaqət əleyhinə" olan cinayətlər öz əksini tapmısdır. Cəzanın ölçüsü təqsirkarın silki-kasta mənsubiyyətindən asılı olaraq müəyyən edilirdi. Məsələn, brahmanı təhqir etmiş kşatri (hərbi, siyasi, və iqtisadi hakimiyyət kşatrilərin əlində cəmlənirdi ) 100 pan (pan 9,76 qrama bərabər olan mis sikkə idi), vayşi (vayşilər kəndli-icmaçılatdan və tacirlərdən ibarət idi) onu təhqir etdiyinə görə 250 pan cərimə olunur, şudr (itaət edən təbəqə) təhqir etdiyinə görə isə cismani cəzaya məruz qalırdı. Şudranın təhqir etməsi nəinki ağırlaşdırıcı hal, həm də "dəhşətli təhqir" hesab olnurdu. Belə cinayətə görə şudranın dili kəsilirdi[26]. Söz və ya hərəkətlə təhqirə aid olan işlərin məhkəmə tərəfindən yoxlanması tələb olunmurdu. Qanunlar sübut qismində kasta mənsubiyyətinə uyğun olaraq and içməkdən istifadəni nəzərdə tuturdu.

Afina hüququnda da hələ eramızdan əvvəl böhtan və təhqir cinayəti mövcud olmuş və şəxsiyyət əleyhinə cinayətər kimi nəzərdə tutulmuşdu.

Klassik dövrün Roma hüququnda təhqir şəxsiyyət əleyhinə olan cinayət hesab edilirdi və xüsusi sayılan cinayətlərdən hesab edilirdi.

Romada e.ə I əsrdə "əlahəzrəti təhqir etmə" anlayışı ilə əhatə edilən bir sıra qanunlar verildi. Dövlətin təhlükəsizliyinə sui-qəsd, Roma xalqı "əlahəzrətinin" təhqir edilməsi, Roma dövlətinə ziyan vurma və s bunlara daxil idi. Bu cinayətlər dövlətin mənafeləri əleyhinə yönəldilmişdir. Prinsipat və dominat dövründə dövləti cinayətlərin xarakteri dəyişdi və artıq onlar imperator hakimiyyəti əleyhinə olan cinayətlərə daxil edildi.

Tədqiqat işində həmçinin Ərəb xilafəti dövründə böhtan və təhqir etmə araşdırılır, İslamda böhtan atmanın ağır cinayət hesab edildiyi göstərilir və bu Quranda təhqir və böhtanla bağlı bəzi surələrin ("Əz-Zumər","ər-Rum", "əl-

[26] Məlikova M.F., Nəbiyev E.Q. Xarici ölkələrin dövlət və hüquq tarixi.Dərslik. Bakı: "Qanun" nəşriyyatı, 1997, s.79



Mütəffifin","əl-Hicr","əz-Zuxruf","əl-Ənbiya","əl-Casiyə","ət-Tövbə","Yasin", "əl-Hucurat", "əl-Bəqərə","əl-Əhzab", "əl-İsra", "əl-Nur", "əl-Hucurat" və s.) öz əksini tapması ilə əsaslandırılır[27]. Bu yarımfəsildə həmçinin feodalizm dövründə Türkiyədə, Çində, Yaponyada, Fransa dövlətində senyorluq monarxiyası dövründə, Mütləq monarxiya dövründə Almanyada, Rusiyada təhqir və böhtan cinayətinin tarixinə nəzər salınır.

İkinci yarımfəsil **"Azərbaycan cinayət hüququnda böhtana və təhqirə görə cinayət məsuliyyətinin genezisi"** adlanır. Bu yarımfəsildə1922, 1927, 1960, 1999-cu illər Cinayət qanunvericiliyində təhqir və böhtanla bağlı müddəalar araşdırılır, müqayisəli təhlil edilir, müvafiq olaraq oxşar və fərqli cəhətləri, çatışan və çatışmayan cəhətləri təhlil edilir. Qeyd edilir ki, Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 2-ci sessiyası tərəfindən 9 dekabr 1922-ci il tarixdə qəbul edilmiş Azərbaycan İctimai Şura Cumhuriyyətinin Cəza Məcəlləsində Böhtan cinayət əməli kimi bu Məcəllənin "Həyat, səhhət və şəxsiyyətin heysiyyətinə qarşı olan cinayətlər" adlı 5-ci fəsilinə daxil edilmişdi.

Azərbaycan Mərkəzi İcraiyyə Komiteti və Xalq Komissarları Sovetinin qərarı ilə 1927-ci il ə, 3 dekabr təsdiq edilən, 1928-ci il 15 yanvarda qüvvəyə minən Azərbaycan SSR Cəza Məcəlləsi "Həyat, səhhət, azadlıq və şəxsiyyət heysiyyətinə qarşı olan cinayətlərin" yerləşdiyi altıncı fəsildə 202, 204, 205-ci maddələr təhqir və böhtana həsr edilmişdir.

1922 və 1927-ci il Cinayət Məcəllələridə təhqir və böhtanın törədilmə üsullarına görə müxtəlif maddələrdə yerləşdirilməsi qüsurlu hal kimi qiymətləndirilmişdi.

1960-cı il Azərbaycan SSR Cinayət Məcəlləsində Təhqir və böhtan "Şəxsiyyət əleyhinə olan cinayətlər" adlanan üçüncü fəslə daxil idi.

Tədqiqat işində həmçinin Təhqir və Böhtan cinayəti ilə bağlı 1999-cu il Cinayət Məcəlləsinin mövqeyi təhlil edilir. İşdə Böhtan və Təhqir cinayətləri ilə bağlı 1922, 1927, 1960, 1999-cu il məcəllələrinin mövqeyi ilə yanaşı Azərbaycan Respublikasının 16 may 2008-ci il, № 607-IIIQD №-li, Azərbaycan Respublikasının 31 may 2011-ci il, №137-IVQD№-li, Azərbaycan Respublikasının 30 aprel 2013-cü il, 640-IVQD №-li, Azərbaycan Respublikasının 14 may 2013-cü il, 650-IVQD, Azərbaycan Respublikasının 29 noyabr 2016-cı il tarixl, Azərbaycan Respublikasının 31 may 2017-ci il, 707-VQD, Azərbaycan Respublikasının 20 oktyabr 2017-cl il tarixli Qanunları da təhlil edilmişdir.

[27] Bünyadov Z.M., Məmmədəliyev.V.M. Qurani-Kərim. Bakı: "Çıraq" nəşriyyatı, 2004, s.480, 569

Dissertasiyanın üçüncü fəsli **“Böhtan cinayətinin anlayişi və ümumi xarakteristikasi”** adlanır və üç yarımfəsildən ibarətdir.

Birinci yarımfəsil **“Böhtan cinayətinin anlayışı və tərkib əlamətləri üzrə hüquqi təhlili”** adlanır. Bu yarımfəsildə qeyd edilir ki, Cinayət Məcəlləsinin 147.1-ci maddəsinə görə böhtan-yalan olduğunu bilə-bilə, hər hansı şəxsin şərəf və ləyaqətini ləkələyən və ya onu nüfüzdan salan məlumatları kütləvi çıxışlarda, kütləvi nümayiş etdirilən əsərdə və ya kütləvi informasiya vasitəsində yaymadır.

Böhtan şəxsiyyət əleyhinə olan cinayətlərə aiddir. Böhtan cinayəti obyektiv cəhətdən yalan olduğunu billə-bilə hər hansı şəxsin şərəf və ləyaqətini ləkələyən və ya onu nüfuzdan salan məlumatları kütləvi çıxışlarda, kütləvi nümayiş etdirilən əsərdə və ya kütləvi informasiya vasitəsində yaymada ifadə olunur.

Kütləvi çıxış dedikdə, hər hansı şəxsin şərəf və ləyaqətini alçaldan və ya onu nüfuzdan salan məlumatları ən azı iki nəfər kənar şəxsin görə, eşidə və ya qavraya biləcəyi formada ifadə etmə başa düşülür.

Kütləvi nümayiş etdirilən əsər dedikdə, ən azı iki nəfər şəxsin görə və ya qavraya biləcəyi şəraitdə nümayiş etdirilən əsərlər, yəni, fotoşəkillər, rəsm əsərləri, kinematoqrafiya əsərləri və s. başa düşülür.

Kütləvi informasiya vasitəsi dedikdə, dövri mətbu nəşrləri, teleradio proqramları, kinoxronika proqramları və digər yayım formaları başa düşülür.

Ləkələyən məlumatlar elə məlumatlardır ki, bunlar qanuna, birgəyaşayış qaydalarına, mövcud əxlaqa zidd olur, zərərçəkmişin şərəf və ləyaqətini, nüfuzunu əhatənin, insanların gözündə alçaldır.

İşdə həmçinin diffamasiya ilə böhtanın fəqi göstərilir. Qeyd edilir ki, diffamasiya latın sözü olub “diffamare”–yaxşı adını ləgv etmə, adını ləkələmə, pisləmə mənasın ifadə edir[28].

Tədqiqat işində həmçinin Böhtan cinayəti tərkib əlamətləri üzrə təhlil edilir, obyektinə, obyektiv cəhətinə, subyektinə və subyektiv cəhətinə münasibət bildirilir.

İkinci yarımfəsil **“Böhtan cinayətinin digər oxşar cinayətlərdən fərqi və tövsifedici halları”** adlanır. Bu yarımfəsildə AR CM-nin 147-ci maddəsində nəzərdə tutulan Böhtan cinayəti Təhqir (mad.148), Şəxsi həyatın toxunulmazlığını pozma (mad. 156), Terrorçuluq barədə bilə-bilə yalan məlumat vermə (mad. 216), Dövlət sirrini yayma (mad 284), Bilə-bilə

[28] Нуркаева Т., Щербаков С. Уголовно-правовая охрана чести и достоинства личности // Российская юстиция, Москва, № 2, февраль, 2002, с.164



yalan xəbərçilik etmə (mad. 296), Bilə-bilə yalan ifadə vermə, yalan rəy vermə və ya yanlış tərcümə etmə (mad. 297), Təhqiqat və ya ibtidai istintaq məlumatlarını yayma (mad. 300), Məhkəmə və hüquq–mühafizə orqanları işçiləri barəsində tətbiq edilən təhlükəsizlik tədbirləri haqqında məlumatları yayma (mad. 301), Cinayət prosesində iştirak edən şəxslər barəsində tətbiq edilən təhlükəsizlik tədbirləri haqqında məlumatları yayma (mad. 316), İnsan alverindən zərərçəkmiş şəxs haqqında konfidensial məlumatları yayma (mad.316-1), Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı həyata keçirilən tədbirlər haqqında məlumatları yayma (mad. 316-2), Azərbaycan dövlətinin başçısının-Azərbaycan Respublikası Prezidentinin şərəf və ləyaqətini ləkələmə və ya alçaltma (mad. 323) cinayətləri ilə fərqləndirilib, oxşar cəhətlər göstərilib. Aparılan ümumiləşdirmə zamanı Təhqir və Böhtan cinayətinin aşağıdakı oxşar və fərqli cəhətləri müəyyən edilir: -hər iki cinayət “Şəxsiyyət əleyhinə olan cinayətlər” bölməsinin “Şəxsiyyətin azadlığı və ləyaqəti əleyhinə olan cinayətlər” fəsilinə daxildir;

-hər iki cinayətin bilavasitə obyektini şəxsin şərəf və ləyaqəti təşkil edir; -hər iki cinayətin edilmə üsulu eynidir: kütləvi çıxışlarda, kütləvi nümayiş etdirilən əsərdə, kütləvi informasiya vasitəsində və ya kütləvi nümayiş etdirildiyi halda internet informasiya ehtiyatında yayma; -hər iki cinayətin motivi eyniyyət təşkil edir: qısqanclıq, paxıllıq, həsəd və s; -hər iki cinayət subyektiv cəhətdən birbaşa qəsdlə törədilir; -hər iki cinayətin subyekti 16 yaşa çatmış anlaqlı fiziki şəxsdir.

Fərqli cəhətlər isə aşağıdakılardır:

-böhtan cinayətində təhqir cinayətindən fərqli olaraq, şərəf və ləyaqətlə yanaşı nüfuz da bu cinayətin obyektini təşkil edir; -böhtana görə cinayət məsuliyyətinin yaranması üçün şəxsin şərəf ləyaqətini ləkələyən məlumatları yayan şəxs həmin məlumatların “yalan” olmasını bilir və bunu qəsdən, bilə-bilə yayır, təhqir cinayətinə görə isə məsuliyyətin yaranması üçün yayılan məlumatların “nalayiq” olmasıdır; -böhtan cinayətində ağırlaşdırıcı tərkib əlaməti (ağır və ya xüsusilə ağır cinayətdə ittiham etməklə böhtan atma) nəzərdə tutulsa da, təhqir cinayətində ağırlaşdırıcı tərkib əlaməti nəzərdə tutulmamışdır.

Üçüncü yarımfəsil **“Milli və bəzi xarici ölkələrin cinayət qanunvericiliyində böhtan cinayətinin müqayisəli təhlili”** adlanır. Bu yarımfəsildə Türkməistan, Tacikistan, Qazaxıstan, Özbəkistan, Rusiya, Belarusiya, İngiltərə, Fransa, İspanya, Norveç, İsveç, İsveşrə, Hollandiya, Almanya, Macarıstan kimi dövlətlərin cinayət qanunvericiliyi müqayisəli təhlil edilərək oxşar və fərqli cəhətlər müəyyən edilir.

Bu yarımfəsildə sadalanan hər bir ölkənin cinayət qanunvericiliyində böhtanla bağlı maddələr araşdırılır. Məsələn, Türkmənistanın Cinayət Məcəlləsində bizdən fərqli olaraq Böhtan adlanan 132-ci maddə üç hissədən ibarətdir (mad 132)[29] . Həmin maddənin birinci hissəsinə görə böhtan dedikdə, bilə-bilə yalan məlumatların yayılması, başqa şəxsin şərəf və ləyaqətinin alçaldılması və ya nüfuzunun ləkələnməsi başa düşülür. Maddənin məzmunundan göründüyü kimi, burada cinayət məsuliyyətinin yaranması üçün haqlı olaraq "kütləviliyi" nəzərdə tutmayıb. Kütləvilik əsas əlamət olaraq ağırlaşdırıcı hal kimi maddənin ikinci hissəsində nəzərdə tutulub. Belə ki, yalan məlumatların kütləvi çıxışlarda, kütləvi nümayiş etdirilən əsərlərdə və ya kütləvi informasiya vasitələrində yayılması bu maddənin ikinci hissəsi ilə məsuliyyətə səbəb olur. Əgər törədilən əməl ağır nəticələrə səbəb olarsa, yaxud şəxsi ağır cinayət törətməkdə ittiham etməklə böhtan atarsa bu zaman cinayət törədən şəxsin əməli 132-ci maddənin 3-cü hissəsilə tövsif ediləcək. Türkmənistan bizdən fərqli olaraq böhtanın ağır nəticələrə səbəb olmasını da düzgün olaraq ağırlaşdırıcı hal kimi qiymətləndirmişdi.

İsveçrə qanunvericiliyində maddənin məzmunu və Macarıstan qanunvericiliyində isə böhtanın daxil olduğu fəsilin adı məqsədə uyğun hesab edilir. Belə ki, İsveçrə qanunvericiliyi böhtanı həm cinayət, həm də mülki hüquq pozuntusu hesab edir. Böhtana görə, bir tərəfdən cinayət işi qaldırılır, digər tərəfdən təqsirkar şəxsə qarşı mülki iddia irəli sürülür.

Macarıstan Krallığınını Cinayət Məcəlləsində Böhtan cinayəti "İnsan əleyhinə edilən cinayətlər" adlı II fəsilin 12-ci maddəsində öz əksini tapıb. Həmin maddəyə görə Böhtan dedikdə, bilə-bilə yalan məlumatların yayılması başa düşülür. Həmin maddənin sanksiyasında bu cinayət əməlinə görə 6000 forintdən 30000 forintədək məbləğdə cərimə nəzərdə tutulub. Bizim qanunvericilikdən fərqli olaraq Macarıstan Cinayət Məcəlləsində Böhtanın anlayışında "kütləviliyə" əsas əlamət kimi üstünlük verilmir.

Dördüncü fəsil "**Təhqir cinayətinin anlayişi və ümumi xarakteristikasi**" adlanır və iki yarımfəsildən ibarətdir.

Birinci yarımfəsil "**Təhqir cinayətinin anlayışı, tərkib əlamətləri üzrə hüquqi təhlili və digər oxşar cinayətlərdən fərqi**" adlanır. Bu yarımfəsildə Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulan təhqir cinayətləri 2 qrupa bölünür:

1. Ümumi təhqir cinayəti;

[29] Уголовный Кодекс Туркменистана. http://www.legislationline.org.



2. Xüsusi təhqir cinayətləri.

Ümumi təhqir cinayətinə Cinayət Məcəlləsinin 148-ci maddəsində nəzərdə tutulan təhqir cinayətini aid edilir.

Xüsusi təhqir cinayətlərinə isə Cinayət Məcəlləsində nəzərdə tutulan aşağıdakı cinayətləri aid edilir:

- Qəbir üzərində təhqiredici hərəkət (maddə 245);
- Məhkəməyə hörmətsizlik etmə (maddə 289);
- Azərbaycan dövlətinin başçısının-Azərbaycan Respublikası Prezidentinin şərəf və ləyaqətini ləkələmə və ya alçaltma (maddə 323);
-Azərbaycan Respublikasının Dövlət bayrağı və ya Azərbaycan Respublikasının Dövlət gerbi barədə təhqiredici hərəkətlər (maddə 324);
- Hərbi qulluqçunu təhqir etmə, döymə və ya işgəncə vermə maddə 331).

Bu yarımfəsildə həmçinin Təhqir cinayətinin tərkib əlamətləri üzrə hüquqi təhlili verilir. Bu cinayətin obyekti, obyektiv cəhəti, subyekti və subyektiv cəhətinə münasibət bildirilir.

Qeyd edilir ki,Təhqir cinayətinin bilavasitə obyekti şəxsiyyətin şərəf və ləyaqətidir. Lakin, bəzən təhqirlə deyilən söz insanın sağlamlığına sağlamlığa vurulmuş ağır zərər qədər təhlükə yarada bilər. Məsələn infarkt, insult. Buna görə də əlavə obyekt kimi həyat və sağlamlığın çıxış etməsi mütləqdir.

Təhqir cinayətindən zərərçəkən istənilən şəxs ola bilər. İstənilən hər bir şəxs özünün şərəf və ləyaqətinin qorunmasını tələb etmək hüququna malikdir. Şəxsin özünə qarşı olan sayqınlığını itirməsi digər şəxsin onun şərəf və ləyaqətini alçaltmasına yəni təhqir etməsinə əsas verə bilməz. Təhqirə məruz qalan şəxs hüquq mühafizə orqanlarına müraciət etməsə təhqir edən şəxs barəsində cinayət məsuliyyəti yarana bilməz.

Cəmiyyətdə tanınan şəxslərlə məsələn, siyasətçilər, sənət və elm adamları ilə yanaşı cəmiyyətdə tanınmayan adamlarında şərəf və ləyaqəti eynilə qorunur. Təhqirə məruz qalmış fəaliyyət qabiliyyəti olmayanlar, yetkinlik yaşına çatmayanlar bu cinayəti dərk edib-etməməsindən asılı olmayaraq bu cinayətdən zərərçəkmiş şəxs sayılır. Bu şəxslərin mənafelərinin qorunma haqqı onların nümayəndələrinə verilir. Qanun hər kəsin şərəf və ləyaqətini qoruduğu üçün hətta cəmiyyətin dəyərsiz gördüyü belə bir insan bu cinayətdən zərərçəkmiş sayılır və qanun yolu ilə müdafiə olunur. Ölü haqqında deyilən sözlər, cəsədinə yönələn təhqiredici hərəkətlər ölünün yaxınlarının şərəfinə və ləyaqətinə xələl gətirə bilər və bu zaman zərərçəkmiş şəxs qismində ölünün yaxınları götürülür.

Hətta XX əsrin ortalarında qəbul edilən və hazırda da müraciət etdiyimiz Konvensiyalar hərbi əsirlərin, müharibə zamanı mülki əhalinin

işğal edən, əsir götürən dövlət tərəfindən həmin şəxslərin təhqir edilməsini qadağan edir, onların şərəf və ləyaqətinə hörmət edilməsini tələb edirdi. Belə ki, "Müharibə zamanı mülki əhalinin müdafiəsi haqqında" BMT-nin 1949-cu il 12 avqust tarixli Konvensiyasının və "Hərbi əsirlərlə rəftar etmə haqqında" 1949-cu il Cenevrə Konvensiyasının 3-cü maddəsinin "c" bəndi döyüş əmliyyatlarında bilavasitə iştirak etməyən şəxslərin, o cümlədən döyüş silahını yerə qoymuş silahlı qüvvələrin üzvlərinin və xəstələnmə, yaralanma, tutulma və ya hər hansı digər səbəb üzündən sıradan çıxmış şəxslərin ləyaqətinə qarşı qəsd edən, xüsusən təhqiredici və ya ləyaqətini alçaldan rəftar edilməsini qadağan edirdi

İkinci yarımfəsil "**Milli və bəzi xarici ölkələrin cinayət qanunvericiliyində təhqir cinayətinin müqayisəli təhlili**" adlanır. Bu yarımfəsildə Türkiyə, Türkməistan, Tacikistan, Qazaxıstan, Özbəkistan, Rusiya, Belarusiya, İngiltərə, Fransa, İspanya, Norveç, isveç, İsveşrə, Hollandiya, Almanya, Macarıstan kimi dövlətlərin cinayət qanunvericiliyi müqayisəli təhlil edilərək oxşar və fərqli cəhətlər müəyyən edilir.

Məsələn, bu fəsildə Turkiyə Cümhuriyyətinin Türk Cəza Kanununda Təhqirlə bağlı müddəalar təhlil edilməklə yanaşı, "Atatürk əleyhinə işlənən suçlar hakkında Kanun" təhlil edilir. Türkiyə Cümhuriyyətinin Türk Ceza Kanununun VIII bölməsi "Şərəfə qarşı suçlar" adlanır. Həmin bölmədə təhqirlə bağlı bir neçə maddə öz əksini tapmışdır (mad.125)[30] . Təhqir (hakaret) adlanan 125-ci maddənin dipozisyasında göstərilir ki, bir kimsənin onurunu, şərəf və hörmətini alçalda biləcək konkret hərəkət və ya söyməyə görə üç aydan iki ilə qədər həbs və ya cərimə cəzası tətbiq edilir. Əgər təhqiredici əməllər səsli, yazılı və ya görüntülü formada olarsa yenə də yuxardakı cəza tətbiq ediləcək.

Lakin bu şərəf və ləyaqəti alçaldan əməllər vəzifə borcunu yerinə yetirən şəxsə; dini, siyasi, sosial, fəlsəfi inanc, düşüncə və fikirlərini açıqlamasına, yaymağa çalışmasına, mənsub olduğu dinin qayda qanunlarına uyğun hərəkət etməsinə görə şəxsə qarşı törədilərsə tətbiq edilən cəzanın minimum həddi bir ildən az olmamalıdır.

TCK-nun 126-cı maddəsinə görə təhqir cinayəti törədilən zaman zərərçəkən şəxsin adı çəkilməsə də, onu ifadə edən, onun kimliyini bildirən əlamətlər söhbətin kimdən getdiyini bəlli edərsə bu zaman təhqir cinayəti və zərərçəkən şəxs mövcud olacaqdır. TCK-nunda "Haqsız hərəkət səbəbi və ya qarşılıqlı təhqir" adlanan 129-cu maddəyə görə bir-birini qarşılıqlı

[30] Türk Ceza Kanunu / T.C.Anayasası. Temel ceza yasalaları. Ankara: Yetkin Basımevi, 2010



təhqir edən şəxsin hər ikisi və ya biri məsuliyyətdən azad edilə bilər və ya cəza üçdə biri qədər azaldıla bilər.

Türk Cəza Kanununun "Şəxsin xatirəsini təhqiretmə" (130/f.1-ci maddə) adlı norma vardır və bu normanın məzmunu aşağıdakı kimidir: "Bir kimsənin öldükdən sonra xatirəsini ən azı üç şəxslə birlikdə təhqir edən şəxs 3 aydan iki ilə qədər həbs və ya cərimə cəzası ilə cəzalandırılır. Cinayət aşkar vəziyyətdə işləndikdə cəza nəzərdə tutulmuş cəzanın altıda biri qədər artırılır".

Almaniya Cinayət Məcəlləsində də "Ölmüş şəxsin xatirəsini ləkələmə və ya alçaltma" adlı ayrı maddə də nəzərdə tutulmuşdur. Bundan əlavə təhqirlə bağlı başqa bir maddədə qarşılıqlı təhqirdən bəhs edilir.

Dissertasiya işinin **nəticə** hissəsində tədqiqat zamanı əldə olunmuş elmi nəticələr, cinayət hüququ nəzəriyyəsini yeni elmi müddəalar ilə zənginləşdirə bilən müddəalar, qanunvericiliyin təkmilləşdirilməsinə yönəlmiş təkliflər yığcam şəkildə verilmişdir.

**Dissertasiya tədqiqatı ilə əlaqədar müəllif tərəfindən aşağıdakı elmi əsərlər çap edilmişdir:**

1. İşgəncə vermənin anlayışı haqqında // Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problemləri. Bakı, 2009, s. 237-240.

2. Köləliyin anlayışı və tarixi haqqında / Ümummilli lderimiz Heydər Əliyevin anadan olmasının 88-ci il dönümünə həsr olunmuş "Dövlət və hüquq quruculuğunun aktual problemləri" mövzusunda 11-ci Respublika Elmi-praktik konfransının materialları. II cild, Bakı, 2011, s.72-74

3. Şəxsiyyət əleyhinə edilən olan cinayətlərin sistemində təhqir və böhtanın yeri / Bakı Dövlət Universiteti, Hüquq fakültəsi, Azərbaycan xalqının Ümummilli lderi Heydər Əliyevin anadan olmasının 92-ci il dönümünə həsr olunmuş "Heydər Əliyevin Azərbaycan Respublikasının Hüquq elminin və təhsilinin inkişafında rolu" mövzusunda Beynəlxalq Elmi-praktik Konfransın materialları. II cild, Bakı, 2015, s.139-141.

4. Şərəf və ləyaqət əleyhinə edilən cinayətlərin təsnifatı / Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi, Polis Akademiyası, Regional cinayətkarlığın kriminoloji tədqiqinin aktual problemləri, III Beynəlxalq Elmi-praktik Konfrans, Bakı, 2015, s. 343-347.

5. Şərəf və ləyaqətin fəlsəfi anlayışı // "Azərbaycan Hava Yolları" qapalı səhmdar cəmiyyəti Milli Aviasiya Akademiyası. Elmi Məcmuələr, 2016, cild 18, №1, s. 60-63.

6. Böhtan cinayətinin anlayışı və obyektiv əlamətləri // Qanun, 2016, №03(257), s. 70-74.

7. Правовая природа и объективные признаки состава преступления оскорбления // ІНСТИТУТ ДЕРЖАВА І ПРАВА імені В.М. Корецького НАН УКРАIНИ. Держава I право. Серія юридичнi науки, Віпуск 71, Киів, Видавництво, «Юридична думка» 2016, с. 455-466.

8. Şəxsiyyətin şərəf və ləyaqəti əleyhinə olan cinayətlərlə mübarizədə cinayət qanunvericiliyinin inkişaf tarixi // Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri № 64, 2016, s.131-140

9. Aparteid-şərəf və ləyaqət əleyhinə edilən cinayət kimi / Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 93-cü il dönümünə həsr olunmuş "Heydər Əliyev və Azərbaycanda hüquqi dövlət quruculuğu" mövzusunda Beynəlxalq Elmi-praktik Konfrans. II cild, Bakı, 06/2016, s.144-146.

10. Böhtan və təhqirin digər oxşar cinayətlərlə müqayisəli təhlili // Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi, Polis Akademiyasının Elmi xəbərləri, 2017, №1, s. 41-52

11. Milli və xarici ölkələrin cinayət qanunvericiliyində böhtan cinayətinin müqayisəli təhlili / Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 94-cü il dönümünə həsr olunmuş "Müasir dövrdə Azərbaycan Respublikasında hüquq elminin və təhsilinin əsas inkişaf tendensiyaları" mövzusunda Beynəlxalq Elmi-praktiki Konfransın materialları. II cild, Bakı, 06/2017, s.172-175



**РЕЗЮМЕ**

Диссертация Мусаевой Айнуры Тофиг кызы «Уголовно-правовая борьба с общественно опасными деяниями, совершенными против чести и достоинства (оскорбление и клевета)», представленная на соискание ученой степени доктора философии по праву по специальности 5611.01 - «Уголовное право и криминология; уголовно- исполнительное право», является самостоятельным законченным научно-исследовательским трудом.

Структура диссертации в соответствии с целью и поставленными задачами исследования состоит из введения, четырех глав, включающих девять подглав, заключительной части, списка использованной литературы и дополнений.

Во Введении обосновываются актуальность и степень разработанности темы диссертации, определяются цели и задачи исследования, его методологические основы, показаны теоретическая новизна и практическая значимость содержащихся в работе положений и выводов, представлены результаты апробации проделанной работы, а также сформулированы основные положения, выносимые на защиту.

Первая глава диссертации, озаглавленная как «Преступления против чести и достоинства», состоит из двух подглав. В этой части работы рассмотрены философское понятие чести и достоинства (первая подглава), дается классификация преступлений, совершаемых против чести и достоинства в Уголовном Кодексе Азербайджанской Республики (вторая подглава). С этой целью на основе определенных критериев проанализированы более 20 составов уголовных преступлений, совершаемых против чести и достоинства, дана краткая аннотация на каждое преступление.

Вторая глава диссертации, озаглавленная как «История развития уголовного законодательства в борьбе с преступлениями против чести и достоинства личности (клевета и оскорбление)», состоит также из двух подглав. В первой подглаве, озаглавленной как «Клевета и оскорбление: исторические источники», рассмотрена ответственность за клевету и оскорбление в историческом аспекте: рассмотрены в различные исторические эпохи понятие чести и достоинства, виды наказания, которые применялись за совершения преступлений против чести и достоинства. Вторая подглава второй главы озаглавлена как «Генезис уголовной ответственности за клевету и оскорбление в уголовном праве Азербайджанской Республики». В ней дан сравнительный анализ норм УК Азербайджанской ССР 1922, 1927, 1960, а также действующего УК 1999 годов, выявлены схожие и отличительные черты в вопросе ответственности за преступления против чести и достоинства личности.

Третья глава диссертации, озаглавленная как «Понятие и общая характеристика клеветы», состоит из трех подглав. В этой части исследования рассказывается об объективных и субъективных признаках состава преступления клеветы, об отличительных признаках других уголовных преступлений, анализируются составы клеветы в уголовном законодательстве зарубежных стран,

указывается на отличительные и схожие черты между клеветой и оскорблением, которые имеют место в законодательстве и практике Азербайджанской Республики.

Четвертая глава исследовательской работы названа как «Понятие и общая характеристика оскорбления». Данная глава включает две подглавы. В этой части работы рассмотрены понятие оскорбления, дан юридический анализ состава указанного преступления, проанализированы отличительные черты смежных преступлений, изучено законодательство некоторых зарубежных стран в части уголовной ответственности за оскорбление.

В заключительной части исследовательской работы кратко рассказывается об основных результатах, достигнутых при исследовании темы диссертации.

В самом конце диссертации приложены составленные автором таблицы, раскрывающие основное содержание диссертационной работы.



**SUMMARY**

The dissertation of monographic character “Criminal law struggle against honor and dignity done by socially dangerous actions (insult and slander)”, written by Musayeva Aynura Tofig, specialty 561101 “ Criminal law and criminology; sentence execution law”, is dedicated to issues research of struggle against honor and dignity done by socially dangerous actions. The structure of the dissertation consists of aim research and according to it introduction, the main research issues, covering nine paragraphs including four chapters, conclusions, the list of literature sources and supplements. In the introduction part of the research the actuality of the dissertation theme, the degree of scientific development of the research theme, the aim of the research and its positions, the object and the subject of the research, processing methodology and methods, theoretical foundation and empiric basis, scientific innovations, thesis for defense, research theory and its practical importance is spoken about.

The first chapter of the dissertation is called “Crimes against honor and dignity”. There are two paragraphs in this chapter. In the first paragraph called “The concept of honor and dignity philosophy” the approach to honor and dignity philosophy is mentioned about. The second paragraph of this chapter is called “Classification of crimes against honor and dignity in the Criminal Code of Azerbaijan Republic”. About twenty crimes against honor and dignity are being investigated in this paragraph; each of them is commented and according to the certain criteria classification is done.

The second chapter of the dissertation is called “Crime development history of legislation in the struggle against person’s honor and dignity crimes (Insult and slander)”. This chapter consists of two chapters. The first paragraph is called “insult and slander: historical sources”. Appreciation of honor and dignity from ancient times up to nowadays and kinds of punishment for illegal actions against them are discussed here.

The second chapter is called “Genesis of responsibility for insult and slander in the criminal law of Azerbaijan”. In the second paragraph the regulations about insult and slander in crime legislation in 1922, 1927, 1960, 1999 are being researched, comparative analysis is done, appropriate similar and different, existing and missing features are being analyzed.

The third chapter of the research is called “The concept of crime slander and its general characteristics”. This chapter consists of three paragraphs. In this chapter the objective and subjective signs of slander crime, different features of other similar crimes, insult and slander crimes taken place in crime legislation of some foreign countries are being analyzed; the similar and different features of insult and slander in our legislation are shown; the above mentioned features are defined and they are advisable to use in our country.

The forth chapter of the dissertation is called “The concept of crime insult and its general characteristics”. This chapter consists of two paragraphs. In this chapter the concept of insult, legal analysis of content signs, the difference of similar crimes, and insult in crime legislation of some foreign countries is shown.

In the conclusion part of the research the results of the survey are shortly presented.

*Çapa imzalanmışdır: 24.04.2018*
*Kağız formatı 60x84 1/16*
*Sayı: 100*

*"Ləman Nəşriyyat Poliqrafiya" MMC-də çap olunmuşdur*



**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**АЙНУРА ТОФИГ кызы МУСАЕВА**

# УГОЛОВНО- ПРАВОВАЯ БОРЬБА С ОБЩЕСТВЕННО ОПАСНЫМИ ДЕЯНИЯМИ, СОВЕРШЕННЫМИ ПРОТИВ ЧЕСТИ И ДОСТОИНСТВА (ОСКОРБЛЕНИЕ И КЛЕВЕТА)

**Специальность: 5611.01 – «Уголовное право и криминология; уголовно-исполнительное право»**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени доктора философии по праву**

**БАКУ – 2018**